“Təsdiq edirəm”
Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru
_______________prof.C.M.Cəfərov
“ 25 ” Aprel 2024-cü il

Azərbaycan Dövlət Pedaqoji Universiteti Elmi Şurasının 25.04.2024-cü il tarixli 7 saylı protokolu ilə təsdiq edilmişdir.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun filiallarında tələbələrə ailə vəziyyətinə görə akademik məzuniyyətin verilməsi qaydaları**

1. Azərbaycan Dövlət Pedaqoji Universitetində tələbəyə ailə vəziyyətinə görə akademik məzuniyyətin verilməsi qaydası (bundan sonra - Qaydalar) Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Kollegiyasının 21.02.2024-cü il tarixli KQ-02 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) Qaydaları”nın 5.1.2-ci bəndinə əsasən Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun filiallarında tələbələrə ailə vəziyyətinə görə akademik məzuniyyətin verilməsinə əsas verən halları və akademik məzuniyyətin verilməsi qaydalarını təsbit edir.
2. Tələbələrin ailə vəziyyətinə görə akademik məzuniyyətin verilməsi üzrə müraciətlərinin qəbulu və baxılması Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Kollegiyasının 21.02.2024-cü il tarixli KQ-02 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) Qaydaları”nın 6.1-ci bəndinə uyğun olaraq elektron qaydada Elm və Təhsil Nazirliyinin “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”nin altsistemi vasitəsilə həyata keçirilir.
3. Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun filiallarında tələbələrə ailə vəziyyətinə görə aşağıdakı hallarda 6 aydan 2 ilədək müddətə akademik məzuniyyət verilir:
   3.1. Valideyni, ailə üzvlərindən biri və ya himayəsində olan şəxs vəfat etdiyi üçün təhsilini müvəqqəti davam etdirə bilmədikdə (1 ildən çox olmamaqla);
   3.2. Valideyni, ailə üzvlərindən biri və ya himayəsində olan şəxs ağır xəstələndikdə və uzun müddət baxıma ehtiyacı yarandıqda (həkim-məsləhət (və ya tibbi-həkim ekspertiza) komissiyasının arayışında (və ya qərarında) göstərilən müddətə (2 ildən çox olmamaqla);
   3.3. Ailə üzvünün xidməti işi ilə bağlı yaşayış yerini müvəqqəti tərk etmək zərurəti yarandıqda (Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumu tərəfindən verilmiş sənəddə göstərilən müddətə (2 ildən çox olmamaqla);

3.4. Azyaşlı (3 yaşadək) uşağı olduğu üçün övladına müvəqqəti baxmaq zərurəti yarandıqda (2 ildən çox olmamaqla);

3.5. Reproduktiv sağlamlıqla bağlı tibbi rəy əsasında ər və arvadın birgə iştirakı ilə uzunmüddətli müayinə və müalicəsinə zərurət yarandıqda;

3.6. Cinayət hadisəsinin üstünün açılması üçün hüquq-mühafizə orqanlarına yardım edən, əməliyyat-axtarış fəaliyyətinə cəlb olunmuş şəxslərin və onların ailə üzvlərinin qanunvericiliklə nəzərdə tutulmuş hallarda cinayətkar qruplardan qorunması zərurəti yarandıqda.

4. Tələbələrin ailə vəziyyətinə görə akademik məzuniyyətin verilməsi barədə ərizələrinə ADPU-nun hüquqşünasları tərəfindən bu Qaydaların müddəalarına uyğun baxılaraq müvafiq rəy verilir.

5. Tələbələrin ailə vəziyyətinə görə akademik məzuniyyətin verilməsi barədə müraciətləri ilə bağlı mübahisəli hallar yarandığı təqdirdə məsələyə ADPU-nun Hüquq şöbəsinin müdirinin təqdimatı əsasında bu Qaydaların tələbləri gözlənilməklə "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar"ın icrası və vətəndaşların müraciətlərinə vaxtında və obyektiv şəkildə baxılması məqsədilə ADPU-nun 14.01.2019-cu il tarixli 3/7 nömrəli əmri ilə yaradılmış komissiya tərəfindən baxılaraq yekun qərar qəbul edilir.

6. Bu Qaydaların tələblərinə zidd olan təqdimatların hazırlanmasına görə universitetin aidiyyəti əməkdaşları intizam məsuliyyəti daşıyırlar.